# Qanı ilə tarix yazan İGİDİMİZ



***Ana yurdumuz Azərbaycan hər zaman öz qəhrəmanlıqları ilə tanınır. Qəhrəmanlıq hər kəsin qəlbində bir cür doğulur, bir cür formalaşır və insan qəlbində dolaşan hisslərin ən alisi, ucalıq, rəşadət və ülviyyətlə dolu bir hissdir. Qəhrəmanlıq insan mənəviyyatını daim işıqlandıran və heç vaxt sönməyən əbədi məşələ bənzəyir.***

Tarixin müxtəlif dövrlərində vətənə sadiqlik, cəsarət və hərbi zəka simvoluna çevrilmiş Cavanşir,. Babək, Şah İsmayıl Xətai, Cəmşid xan Naxçıvanski, Həzi Aslanov, Mehdi Hüseynzadə kimi neçə-neçə igid, cəsur oğullarımızın şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Ancaq unutmayaq ki, qəhrəmanlığın əsasını qoyan amil vətənpərvərlikdir. Çünki vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik və inam hissini yaradır. Elə buna görə də xalqımız tarix boyu öz Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullar yetişdirmişdir.

Vətən ən böyük dəyərdir. Vətəni sevmək imandandır. Vətənimizin daşı, torpağı, havası, suyu hər bir azərbaycanlı üçün eyni dərəcədə doğma, əziz və dəyərlidir. Vətən bizə hünər və qəhrəmanlıqla dolu bir keçmişi ərmağan edən, dinclik və rifaha bürünmüş gələcəyi bəxşiş verən igidlərimizin əmanətidir.

30 ilə yaxın idi ki, sinəmizdə qubar bağlayan bir Qarabağ dərdi vardı. Qarabağı sevmək, onun rifahının qayğısına qalmaq üçün mütləq qarabağlı olmaq vacib deyil. Vətənpərvər ruhlu hər bir insan doğma torpağın azadlığı naminə mübarizə aparmaq gücündədir. Əzmkarlıq, qorxmazlıq, igidlik isə bizi qalibiyyətə aparan ən böyük gücdür.

Qalibiyyət Azərbaycan xalqının fitrətindədir. Müstəqilliyimiz dövründə canlarını Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda fəda edən qəhrəman oğullarımız bunu bir daha sübut etdilər. 44 gün davam edən İkinci Qarabağ müharibəsində zabit və əsgərlərimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında çox böyük igidlik və qəhrəmanlıqlar göstərərək düşmən tapdağı altında qalan torpaqlarımızı 30 ilə yaxın davam edən erməni işğalından azad etdilər. Bu cəsur oğulların savaş meydanlarında göstərdikləri igidlik və cəsarət heç vaxt unudulmayacaq. Döyüşlər zamanı zabit və əsgərlərimizə güc verən, qəhrəmanlığa kökləyən amil isə yurd təəssübkeşliyi, Vətən sevgisi, doğma el-obanın hər tərəfini azad görmək arzuları və istəyi idi.

Xalqımıza, Odlar Yurdu Azərbaycana xas olan qəhrəmanlıq ənənəsi bu gün də yaşayır. Azərbaycan tarixinə, millətimizin keçmişinə bir səyahət etsək, şanlı salnaməmizə adları yazılmış nə qədər dövlət başçıları, sərkərdələr, xalq qəhrəmanları görərik.Tariximizi, onun yetirdiyi şəxsiyyətləri yaxından tanıdıqca ürəyim fərəhlə dolur. Onlar gələcək nəsillər üçün igidliyin, şücaətin, qorxmazlığın örnəyidir. Elə oğullarımız da var ki, qısa ömründə vərəqlərə sığmayan qəhrəmanlıq salnaməsi yazıblar. Onlardan biri də Vətən müharibəsində qanı ilə tarix yazaraq, öz cəsurluğu ilə yaddaşlarda iz buraxmış şəhidimiz polkovnik-leytenant Əkbərov Orxan Nadir oğludur.

Quru Qoşunlarının polkovnik-leytenantı Orxan Əkbərov 1982-ci il dekabrın 12-də Saatlı şəhərində dünyaya göz açıb.O, 1989-1997-ci illərdə Saatlı şəhərində 3 saylı tam orta məktəbdə, 1997-1999-cu illərdə isə Biləsuvar şəhərində 1saylı tam orta məktəbdə təhsil alıb. Hər zaman istedadı, qabiliyyəti ilə yaşıdlarından seçilib.



Onun xüsusi liderlik bacarığı olub. Uşaqlıqdan döyüşkən ruhlu bir oğlan idi. Orxan hələ ibtidai sinifdə oxuyanda hərb sənəti ilə maraqlanıb, gələcəkdə peşəkar hərbçi olmağı arzulayıb. Onun ən böyük arzusu isə məhz Xocalının qisasını almaq idi. Balaca Orxan özünə oyuncaq avtomat düzəldərək tez-tez ermənilərdən qisas alacağını deyərdi. Xocalı faiəsi baş verən zaman Orxanın 10 yaşı olardı. Həmin vaxt Orxan Xocalı qətilamının videoyazılarına təkrar-təkrar baxardı. Elə məhz bu hadisə onun hərb peşəsini seçməsinə səbəb olub.

Öz vətənpərvərliyi ilə yaşıdlarından seçilən Orxan Əkbərov orta məktəbi bitirdikdən sonra hərbçi olmaq arzusunu həyata keçirmək üçün 2000-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. O, təhsil aldığı illərdə nümunəvi, hazırlıqlı kursant kimi müəllimlərinin rəğbətini qazanır, hərb sənətinin sirlərinə, incəliklərinə dərindən yiyələnir. 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini Qoşun kəşfiyyatı ixtisası üzrə bitirərək, 2005-ci ildə leytenant rütbəsində Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə tağım komandiri olaraq xidmətə başlayıb. Çox keçmədən onun situasiyanı qiymətləndirmə bacarığını görən rəhbərlik Orxanı 2007-ci ildə bölük komandiri təyin edir və o, bu vəzifədə Vətənə, dövlətə, orduya ləyaqətlə xidmətini davam etdirir. Orxanın yüksək mənəvi və şəxsi keyfiyyətləri, intellekti, liderlik bacarığı, nizam-intizamı, vətənpərvərliyi, zəngin təcrübəsi, döyüş tapşırıqlarını uğurla yerinə yetirməsi komandanlıq tərəfindən hər zaman yüksək qiymətləndirilib. Vətənin igid oğlu Orxan Əkbərov ömrünü çətin, lakin müqəddəs və şərəfli hərb peşəsinə ürəkdən bağlayır.O, həm də hərbçilər arasında peşəkar boks üzrə keçirilən yarışlarda dəfələrlə qalib olub. Orxan fiziki cəhətdən çox sağlam və güclü zabit idi.

Cəsur ürək sahibi olan Orxan 2012-ci ildən 2020-ci ilədək N saylı hərbi hissənin kəşfiyyat bölməsinin rəisi vəzifəsində çalışıb. O, çox tərbiyəli, qeyrətli bir oğul idi.

Vətən sevdalı Orxan 2016-cı il Aprel döyüşlərində və 2020-ci ildə Tovuz istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. İgid Vətən oğlu 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına qarşı ordumuzun əks-hücum əməliyyatı başlayanda "Hər kəsə şəhidlik qismət olmur, Vətən uğrunda canımdan keçərəm", - deyərək irəli atılıb. Orxan komandir kimi daim özündən çox şəxsi heyəti düşünürdü. O, ağır sınaq günlərində əsgərlərini dost, qardaş kimi qorumaq üçün az itkiylə böyük uğur qazanmağın yollarını axtarır. Orxan Əkbərov müharibənin ilk günlərində əsgərləri ilə birlikdə Horadiz istiqamətində düşmənin çoxlu sayda xüsusi təyinatlı əsgərinin, silah və texnikasının məhv edilməsində, istehkamlarının darmadağın olunmasında qəhrəmanlıq, fədakarlıq nümunələri göstərib, "Vətən yolunda öldü var, döndü yoxdur", - deyib. Düşmənə kömək üçün tələsən bölüyün silahla dolu 5 avtomobili, 60 nəfərlik canlı qüvvəsi Orxanın rəhbərliyilə məhv edilir.

Şuşada üçrəngli bayrağımızı birinci dalğalandırmaq komandirin qəlbində gəzdirdiyi ən ülvi bir istək idi. Çox təəssüf ki, onun bu arzusu ürəyində qalır. Polkovnik-leytenant Orxan Əkbərov 2020-ci il oktyabrın 2-də Füzuli istiqamətində gedən döyüşdə düşmənin snayperlə qəfil açdığı atəş nəticəsində İlanlı dağda şəhidlik zirvəsinə ucalır. Onun nəşi bir neçə gün sonra döyüş meydanından çıxarılır. Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı Orxan Əkbərovun nəşi oktyabrın 6-da Biləsuvar şəhərində torpağa tapşırılır.

Ölümü öz ölümsüzlüyü ilə məğlub edən Orxan Əkbərov xalqımızın şərəfini, heysiyyətini uca tutan yurd sevdalıları kimi Vətənin müdafiəsində duraraq, torpaqlarımızın bölünməzliyi uğrunda vuruşub, azğın düşmənə zərbələr endirib və şirin canından keçərək şəhid olub.

Qəhrəmanımız ölümü ilə əlçatmaz zirvəni fəth edib. Orxan və onun kimi Vətən fədailəri heç zaman ölmür, xalq onları daim qəlbində yaşadır.

Polkovnik-leytenant Orxan Əkbərov Vətənə xidmət etdiyi dövrdə müxtəlif illərdə hərbi nailiyyətlərinə görə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley və "Qüsursuz xidmətə görə" 2-ci,3-cü dərəcəli medalları ilə təltif edilmişdir.

Qəhrəman Orxan Əkbərov Vətən müharibəsindəki misilsiz xidmətlərinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən, "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətən müharibəsi qəhrəmanı, şəhid polkovnik-leytenant Orxan Əkbərovun xatirəsini əbədiləşdirmək üçün vaxtilə onun yaşadığı evin önündə abidə kompleksi ucaldılıb. Hal-hazırda Biləsuvar şəhər Musiqi və İncəsənət məktəbi onun adını daşıyır. Həmçinin, Bakı şəhəri Nizami rayon Ərəstun Mahmudov adına 220 saylı məktəb-liseyin sinif otağında şəhidin şəxsi əşyalarından ibarət guşə yaradılıb. Məktəbin şagirdləri tez-tez guşənin önünə tər gül dəstələri qoyaraq qəhrəmanın xatirəsini əbədi yaşadacaqlarına və Vətəni onun kimi sevəcəklərinə and içirlər. Eyni zamanda şəhidimiz haqqında videoçarx da hazırlanıb.

Bu gün bütün dünya Qarabağda tarix yazan oğulların qəhrəmanlığından danışır. Orxan da yüzlərlə qəhrəmanımız kimi şöhrətin əbədi zirvəsinə ucalıb. Zaman ötdükcə xatırlanan, xatırlandıqca yaddaşlarda yurd salan bir igid köçdü bu dünyadan. Vətəninə qırılmaz tellərlə bağlı olan bu cəsur ürək sahibi şəhid polkovnik-leytenant Orxan Əkbərov daim xatirələrimizdə yaşayacaqdır.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

*Gülnar BƏŞİROVA*
*AMEA-nın dissertantı,*
*Azərbaycan Hərb Tarixi*
*Muzeyinin tədqiqatçı-elmi işçis*